**Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası və İtaliya Respublikası arasında əlaqələrin daha da genişlənməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:[1]

***Komissiyanın həmsədri***[2]

*Azərbaycan Respublikasının Energetika naziri*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası Maliyyə nazirinin birinci müavini*
*Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini*
*Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini*
*Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini*
*Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini*
*Azərbaycan Respublikası Təhsil nazirinin müavini*
*Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti*
*Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri.*

2. Bu Sərəncamın 1-ci bəndində göstərilən Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə tapşırılsın ki, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və onların daha da genişlənməsi istiqamətində müvafiq tədbirləri həyata keçirsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 sentyabr 2006-cı il
1680

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 16 yanvar 2009-cu il tarixli 117 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti 17 yanvar 2009-cu il, 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 17**)
2. 22 iyul 2009-cu il tarixli 412 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ( **"Azərbaycan" qəzeti 29 iyul 2009-cu il, 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 589**)
3. 8 fevral 2012-ci il tarixli **2025** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 12 fevral 2012-ci il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 133**)
4. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
5. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**)
6. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
7. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**)
8. 13 noyabr 2017-ci il tarixli **3382** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 15 noyabr 2017-ci il, 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2091** )
9. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**)
10. 2 mart 2020-ci il tarixli **1872** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 3 mart 2020-ci il, 48, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 257**)

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 16 yanvar 2009-cu il tarixli 117 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti 17 yanvar 2009-cu il, 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 17**) ilə 1-ci bəndində "**Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri**" sözləri "**Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri** " sözləri ilə əvəz edilmişdir, "**Gülməmməd Cavadov - Azərbaycan Respublikasının sənaye və energetika nazirinin müavini** " sözləri çıxarılmışdır və "**Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini**" sözlərindən sonra "**Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini**" sözləri əlavə edilmişdir.

22 iyul 2009-cu il tarixli 412 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ( **"Azərbaycan" qəzeti 29 iyul 2009-cu il, 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 589**) ilə 1-ci bəndində "**Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini**" sözləri "**Niyazi Səfərov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini** " sözləri ilə, "**Sənan Kərimov - Azərbaycan Respublikasının səhiyyə nazirinin müavini** " sözləri "**Nigar Əliyeva - Azərbaycan Respublikasının səhiyyə nazirinin müavini**" sözləri ilə əvəz edilmişdir.

8 fevral 2012-ci il tarixli **2025** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 12 fevral 2012-ci il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 133**) ilə "**Emil Kərimov - Azərbaycan Respublikasının İtaliya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri**" sözləri "**Vaqif Sadıqov - Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri**" sözləri ilə və "**Elmar Qasımov - Azərbaycan Respublikasının təhsil nazirinin müavini** " sözləri "**Qulu Novruzov - Azərbaycan Respublikasının təhsil nazirinin müavini**" sözləri ilə əvəz edilmişdir və "**Nigar Əliyeva - Azərbaycan Respublikasının səhiyyə nazirinin müavini**" sözlərindən sonra "**Qüdrət Qurbanov - Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının rəisi** " sözləri əlavə edilmişdir.

10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**) ilə 1-ci hissəsində "**sənaye və energetika naziri** " sözləri "**energetika naziri**" sözləri ilə əvəz edilmişdir.

27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**Niyazi Səfərov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini**" sözləri "**Sahil Babayev - Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavi** ni" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsində "**Vaqif Sadıqov**" sözləri "**Məmməd Əhmədzadə**" sözləri ilə, "**Natiq Məmmədov**" sözləri "**Mətin Kərimli**" sözləri ilə, "**Qulu Novruzov**" sözləri "**Firudin Qurbanov**" sözləri ilə və "**Qüdrət Qurbanov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi**" sözləri "**Ehtiram Rəhimov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini**" sözləri ilə əvəz edilmişdir.

13 noyabr 2017-ci il tarixli **3382** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 15 noyabr 2017-ci il, 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2091** ) ilə 1-ci hissədə "**Natiq Əliyev - Azərbaycan Respublikasının energetika naziri**" sözləri "**Pərviz Şahbazov - Azərbaycan Respublikasının energetika naziri** " sözləri ilə əvəz edilmişdir.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsinin "**İlqar Fəti-zadə - Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini** " sözlərindən sonra "**Əli Abdullayev - Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini** " sözləri əlavə edilmişdir.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsinin "**Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini** " və "**Ehtiram Rəhimov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini**" sözləri çıxarılmışdır.

[2] 2 mart 2020-ci il tarixli **1872** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 3 mart 2020-ci il, 48, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 257**) ilə 1-ci hissəsi ilə təsdiq edilmiş Hökumətlərarası Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

**~~Komissiyanın həmsədri~~**

| | |
|---|---|
| ~~*Pərviz* ***Şahbazov***~~ | ~~*- Azərbaycan Respublikasının energetika naziri*~~ |

**~~Komissiyanın üzvləri:~~**

| | |
|---|---|
| ~~Xələf **Xələfov**~~ | ~~- Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini~~ |
| ~~*Məmməd* ***Əhmədzadə***~~ | ~~- Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri~~ |
| ~~Sahil **Babayev**~~ | ~~- Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini~~ |
| ~~İlqar **Fəti-zadə**~~ | ~~- Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini~~ |
| ~~*Əli Abdullayev*~~ | ~~*- Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini*~~ |
| ~~*Mətin* ***Kərimli***~~ | ~~- Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini~~ |
| ~~İlham **Quliyev**~~ | ~~- Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini~~ |
| ~~Sevda **Məmmədəliyeva**~~ | ~~- Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini~~ |
| ~~*Firudin* ***Qurbanov***~~ | ~~- Azərbaycan Respublikasının təhsil nazirinin müavini~~ |
| ~~Nigar **Əliyeva**~~ | ~~- Azərbaycan Respublikasının səhiyyə nazirinin müavini~~ |
| ~~Elşad **Nəsirov**~~ | ~~- Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin vitse-Prezidenti~~ |